# Təbib

Təsisçi: Azərbaycan Tibb Universiteti

Qəzet 1933 -cü ildən çıxır. http://www.amu.edu.az № 10 (1693) 31 may 2019 - cu il Qiyməti 50 qəpik


# Prezident İlham Əliyev 28 May – Respublika Günü münasibətilə keçirilən rəsmi qəbulda iştirak edib



**Mayın 27-də "Buta" sarayında Azərbaycanın milli bayramı – Respublika Günü münasibətilə rəsmi qəbul keçirilib.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci xanım Mehriban Əliyeva rəsmi qəbulda iştirak ediblər.

Rəsmi qəbul Azərbaycan Respublikasının dövlət himninin səslənməsi ilə başladı.

Dövlətimizin başçısı rəsmi qəbulda nitq söyləyib.

* * *

Rəsmi qəbul Azərbaycan incəsənət ustalarının konsert proqramı ilə davam edib.

## BU SAYIMIZDA




2

## BÖYÜK ELMİ ŞURADA

## Rezidentlərin elmi-təcrübi konfransı keçirilib

3





3

## Əcnəbi tələbələrin III forumu

## Türkmənistanın ölkəmizdəki səfiri ATU-nun qonağı olub

4



**Mayın 30-da ATU-nun Böyük Elmi Şurasının növbəti iclasını açan universitetin rektoru, professor Gəray Gəraybəyli iclasın gündəliyini diqqətə çatdırıb. Bundan sonra "Azərbaycan Tibb Universitetində 2018/2019-cu tədris ilində buraxılış Dövlət Attestasiyasına və yaz semestrinin imtahan sessiyasına hazırlığın vəziyyəti, imtahanların mütəşəkkil keçirilməsində kollektivin vəzifələri" barədə tədris və müalicə işləri üzrə prorektor, professor Sabir Əliyevin hesabat məruzəsi dinlənilib.**




# BÖYÜK ELMİ ŞURADA

## Azərbaycan Tibb Universitetində 2018/2019-cu tədris ilində buraxılış Dövlət Attestasiyasına və yaz semestrinin imtahan sessiyasına hazırlığın vəziyyəti, imtahanların mütəşəkkil keçirilməsində kollektivin vəzifələri müzakirə olunub

"2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliyinin artırılması üzrə Dövlət Proqramı" çərçivəsində islahatların aparılması və inkişaf dinamikasının gələcəkdə də qorunacağını vurğulayan prorektor bildirib ki, universitetin bütün fakültələrində və ixtisaslarında istər bakalavriat, istərsə də ali tibb təhsilinin əsas təhsilində tədris Baloniya bəyannaməsinin müddəalarına uyğun həyata keçirilir: "Beləliklə, ali tibb təhsilinin məzmunu və təlim texnologiyaları məzmun və formaca yeniləşdirilir, tibb təhsilinin əsas təhsili və rezidenturada, əczaçılıq ixtisasında - bakalavriat və magistraturada, təhsil, innovativ tədris metodikaları və materialları ilə təmin edilir, ali təhsildə keyfiyyətin təmin olunması məqsədilə işlər aparılır, universitetin maddi-texniki bazası və strukturu müasirləşdirilir.

Tibb təhsilinin yaxşılaşdırılması məqsədilə qarşıya qoyulmuş vəzifələri müvəffəqiyyətlə icra etmək üçün universitet rektorluğu, tədris hissəsi, dekanlıqlar və kafedralarımız əvvəlki illərdə olduğu kimi 2018/2019-cu tədris ilinin yaz semestrində də əlindən gələni etməyə çalışmışdır.

Rektorluq, tədris hissəsi və fakültə dekanlıqları tələbələrin dərsə davamiyyətini gündəlik diqqətdə saxlamaq məqsədilə tədris binalarında və klinik bazalarda vaxtaşırı reydlər keçirmiş, tələbələrin dərsə davamiyyəti isə dekanlıqların, rektorluq şurasının bütün iclaslarının müzakirə predmeti olmuş, ayrı-ayrı fakültələrin elmi şuralarında semestr ərzində bir neçə dəfə müzakirəyə çıxarılmışdır. Əsasən universitetdə təhsil alan tələbələrin böyük əksəriyyətinin dərsə davamiyyəti qənaətbəxşdir. Lakin bir qrup tələbə "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində kredit sistemi ilə tədrisin təşkili Qaydaları"nın imkan verdiyi həddə qədər - fənn üzrə 20%-ə qədər dərs buraxmağa başlamışlar".

Cari tədris ilindən kafedraların verdiyi məlumatlara görə dərsə gecikən tələbələrə güzəşt edildiyindən dərslərə kütləvi gecikmə hallarının müşahidə olunduğunu, bununla da tədrisin ritminin pozulduğunu deyən məruzəçi bildirib ki, ona görə də dərsburaxma ilə əlaqədar məsələ universitetin Böyük Elmi Şurasında müzakirə olunmalı, tibb təhsilinin xarakter xüsusiyyəti nəzərə alınaraq müvafiq qərar qəbul edilməlidir.

S.Əliyev 2018/2019-cu tədris ilində ilk dəfə olaraq I kurslarda aralıq sorğuların nəticəsinin bu günlərdə rektoryanı şurada geniş müzakirə olunduğunu söyləyib və bu haqda şura üzvlərinə qısa məlumat verərək qeyd edib ki, universitetimizdə xarici tələbələrin sayının artırılması məqsədilə dekanlığın əməkdaşları təhsil sahəsində dünyanın müxtəlif ölkələri və universitetləri ilə əlaqələri genişləndirirlər:



"Xarici ölkələrdən universitetimizdə təhsil almaq üçün müraciət edən tələbələrin sayı ilbəil artır. Artıq 17 ildir ki, universitetimizdə tədris həm də ingilis dilində aparılır. Bu da xarici ölkə vətəndaşlarının universitetə cəlb olunmasında böyük əhəmiyyət kəsb edir.

Xarici tələbələrlə iş üzrə dekanlığın qarşısında duran vacib məsələlərdən biri də tələbələrin Bakı şəhərində müvəqqəti yaşamaq hüququnu təmin etmək üçün Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti ilə sıx əlaqə saxlayaraq onların qeydiyyatını təşkil etməkdən ibarətdir".

Artıq bir neçə ildir ki, rezidenturaya qəbul imtahanlarının 2 mərhələdə aparıldığını və hər mərhələnin 100 balla qiymətləndirildiyini diqqətə çatdıran prorektor deyib ki, cari tədris ili üçün baza tibb fənləri üzrə I mərhələ aprelin 7-də aparılıb, klinik fənlər üzrə II mərhələ isə iyulun 14-nə planlaşdırılır: "Rezidenturaya 2019-cu il qəbulu üçün 1096 nəfər sonuncu kurs tələbəsi və əvvəlki illərin məzunları müraciət etmişdir ki, onlardan 31 nəfəri xarici ölkədə təhsil müəssisələrini bitirənlərdir. Səhiyyə Nazirliyi ilə razılaşdırılaraq I mərhələ üzrə müsabiqə şərti 40 bal saxlanılmışdır. Sənəd verənlərin böyük əksəriyyəti universitetimizin məzunları və ya sonuncu kurs tələbələridir. Ən yüksək toplanan bal 84 bal olmuşdur.

Qeyd etmək lazımdır ki, bu ilin nəticələri keçən ilin müvafiq dövrü ilə müqayisədə xeyli yaxşılaşmışdır. Belə ki, bu il I turdan sonra 40 və daha çox bal toplayanlar 653 nəfərdir (sənəd verənlərin 60%-i). Keçən il baza fənləri üzrə I turda imtahandan sonra 40 və daha çox bal toplayanların sayı cəmi 644 nəfər olmuşdur".

Dövlət Attestasiya sınaqlarına və yaz semestrinin imtahan sessiyasına rektorluq, dekanlar, tədris hissəsi, kafedralar və İmtahan Mərkəzi tərəfindən lazım olan bütün hazırlıq işlərinin görülüb başa çatdırıldığını deyən prorektor universitet kollektivinin bu məsul və çətin işin öhdəsindən bacarıqla gələcəyinə əminliyini bildirib.

Çıxışlarında hesabat məruzəsini qənaətbəxş qiymətləndirən kafedra müdirləri Rəna Əliyeva, Məhbubə Vəliyeva, Elçin Ağayev, Qoşqar Əliyev və Vaqif Şadlinski mövcud problemlərlə bağlı fikirlərini və təkliflərini də şura üzvləri ilə bölüşüblər.

Məruzədə və çıxışlarda səslənən fikirlərə münasibət bildirən rektor bir neçə vacib məqama toxunaraq müasir dövrdə informasiya texnologiyalarının köməyi ilə xeyli önəmli məlumatı əldə edə bildiklərini söyləyib. Artıq bir ildir ki, elektron jurnalın tətbiqinə başlanıldığını diqqətə çatdıran professor G.Gəraybəyli qeyd edib ki, əsas məqsədimiz bu sahədə yol verilən nöqsanları tezliklə aradan qaldırmaq, gələn ildən elektron jurnalda qeydlərin daha dəqiq və vaxtında aparılmasına nail olmaqdır.

Bal-reytinq attestasiyasının əhəmiyyətini xüsusi vurğulayan universitet rəhbəri tələbələrin rəyləri əsasında müəllimlərin fəaliyyətinə daha obyektiv qiymət verildiyini deyib. Onu da bildirib ki, gələcəkdə bal-reytinq attestasiyası elektronlaşandan sonra müəllimin fəaliyyətinin qiymətləndirilməsi zamanı dərs dediyi qrupun imtahan nəticələri də nəzərə alınacaq.

Aralıq sorğularını vaxtında aparılan islahat kimi dəyərləndirən rektor imtahan testlərinin təkmilləşdirilməsinin zəruriliyini də önə çəkib: "Təhlillər onu göstərir ki, ənənəvi testlər tələbələrin əlindədir. Qrafikdən də göründüyü kimi, hansı fənlərdən açıq suallar yoxdursa, həmin fənlərdə aralıq qiymətləndirmənin balı çox yüksəkdir. Açıq suallar olan testlərdə isə bal kəskin surətdə aşağı düşür".

Yuxarıda deyilənləri nəzərə alıb Seçenov adına Moskva Tibb Universiteti, Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutu və Dövlət İmtahan Mərkəzi ilə danışıqlar aparıldığını söyləyən professor G.Gəraybəyli öz kafedralarımızda hazırlanan testlərlə yanaşı, müxtəlif fənlər üzrə adı çəkilən qurumlardan alınan testlərin də elektron sistemə yerləşdiriləcəyini vurğulayıb.

Təkcə davamiyyəti deyil, tədrisin keyfiyyətini də ciddi nəzarətdə saxlamağın vacibliyini, xarici tələbələrlə işləməyin xüsusi həssaslıq və məsuliyyət tələb etdiyini diqqətdə çatdıran rektor yekun nitqində digər məsələlərə də aydınlıq gətirib.

Elmlər doktoru işininn mövzusunu, elmi məsləhətçisini təsdiqləyən elmi şura dərslik, dərs vəsaitləri, metodik vəsaitlərin nəşri, qayıb limiti, müsabiqə müddəti başa çatmış və sosial məzuniyyətdə olan şəxslərin bal-reytinq qiymətləndirilməsindən keçirilməsi və müsabiqə məsələlərini həll etməklə öz işini yekunlaşdırıb.

**Arif MƏMMƏDLİ**

# Rezidentlərin elmi-təcrübi konfransı keçirilib

◆ Mayın 15-də Azərbaycan Tibb Universiteti Rezidentlərinin Ulu Öndər Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr edilmiş 7-ci Elmi-təcrübi (ATUREK-7) Konfransı keçirilib. Tədbir iştirakçıları əvvəlcə universitetin foyesində ümummilli lider Heydər Əliyevin büstünü ziyarət edib, önünə tər çiçəklər düzüblər. Bundan sonra foyedə rezidentlərin hazırladığı elmi-tədqiqat işlərini əks etdirən posterlə tanış olublar.




Konfras iştirakçılarını salamlayan ATU-nun rektoru, professor Gəray Gəraybəyli tədbirin əhəmiyyətindən danışaraq ATUREK-in universitetdə artıq ənənəyə çevrildiyini, bu konfransların rezidentlər və mütəxəssislər arasında təcrübə mübadiləsinin aparılmasına, onların elmi əlaqələrinin gücləndirilməsinə yol açdığını bildirib.

Sözünə davam edən natiq deyib ki, respublikamızda tibbi kadrların yetişməsində böyük rolu olan rezidentura təhsili 2011-ci ildən bəri uğurla davam etdirilir: “ 2013- cü ildən başlayaraq Azərbaycan Tibb Universiteti rezidentura üzrə ilk məzunlarını buraxmağa başlayıb və indiyədək respublika üzrə 1300-dək rezident məzun olmuşdur ki, onlardan da 36 ixtisas üzrə 550-dən çoxu əsas kliniki baza olan universitetimizin məzunlarıdır. Məzun rezidentlərimizin əksəriyyəti Səhiyyə Nazirliyi tərəfindən təyinat alaraq respublikamızın müxtəlif bölgələrində həkim-mütəxəssis kimi çalışır, bir qismi isə universitetimizdə elmi-tədqiqat və pedaqoji işlə məşğul olurlar. Məzun rezidentlərimizin həkim-mütəxəssis kimi yetişməsində universitetimizin müasir klinikaları və orada




çalışan əməkdaşların rolu böyukdür. Hazırda universitetdə 36 ixtisas üzrə 592 rezident təhsil alır ki, onlardan da 39 nəfəri müxtəlif xarici ölkələrin vətəndaşlarıdır. Onlar öz kliniki və elmi təcrübi bacarıqlarını artırmaq üçün klinikalarımızda çalışan bacarıqlı həkimlərdən yararlanmaqla yanaşı xarici ölkələrdə də, o cümlədən, Türkiyə, Almaniya, İsveç, Fransa, ABŞ, İran və digər xarici ölkə xəstəxanalarında 8-10 ay müddətində rotasiyalarda olur, müxtəlif konfrans və seminarlarda iştirak edirlər. Eyni zamanda, hər ilin may ayında Ulu Öndər Heydər Əliyevin doğum gününə həsr edilmiş ATUREK adı altında rezidentlərin elmi-təcrübi konfransı keçirilir. Bu il artıq yeddinci ildir ki, keçirilən elmi-təcrübi konfransımız əlamətdar bir dövrə təsadüf edir. Bilirsiniz ki, bir ay öncə biz Bakı Dövlət Universitetində Tibb fakültəsinin fəaliyyətə başlamasının 100 illiyi ilə bağlı elmi-praktik konfrans keçirdik. Gələn il isə Azərbaycan Tibb Universitetinin yaradılmasının 90 illik yubileyini qeyd edəcəyik .”

Çıxışının sonunda bütün bazalardan olan rezidentləri və magistrləri ATUREK-də fəal iştirak etməyə çağıran professor G.Gəraybəyli rezidentlərin təcrübi bacarıqlarının ildən–ilə artdığını vurğulayıb, onların xalqımızın sağlamlığı naminə yorulmadan çalışacağına əminliyini ifadə edərək konfransın işinə uğurlar diləyib.

Bundan sonra konfrans universitetin elmi işlər üzrə prorektoru, dosent Rauf Bəylərovun sədrliyi ilə öz işini davam etdirib. İki gün davam edən toplantıda rezidentlərin tibbin müxtəlif sahələrinə dair elmi məruzələri dinlənilib.



Qeyd olunub ki, bu il “ATUREK-7” adı altında keçirilən konfransa 28 ixtisas üzrə 103 məqalə və 81 tezis şəklində 184 elmi iş təqdim olunub. Bu il ilk dəfə olaraq rezidentlərlə bərabər universitetimizdə təhsil alan magistrlərdən 30 elmi iş təqdim olunub və toplum şəkilində çap edilibdir. Bu il həm də ikinci dəfədir ki, kardiologiya, cərrahiyyə, pediatriya, stomatologiya, endokrinologiya və əczaçılıq ixtisasları üzrə kurslar təşkil edilib. Bu il ilk dəfə olaraq rezidentlərlə yanaşı, əməkdaşlarımızın və magistrlərin hazırladığı elmi işlər plenar çıxışlara təqdim olunubdur.

Konfransın bağlanışında çıxış edən rezidentura şöbəsinin müdiri, professor Rizvan Məmmədov aparılan elmi tədqiqatların nəticələrinə dair dinlənilən məruzələrdə təbabətin ən aktual problemlərinə toxunulduğunu deyib. Diqqəti qazanılan uğurlara yönəldən şöbə müdiri elmi-təcrübi konfransların keçirilməsində universitet klinikalarının köməyini xüsusi qeyd edib. O, eyni zamanda konfransın yüksək səviyyədə keçirilməsinə görə universitet rəhbərliyinə, təşkilat komitəsinin üzvlərinə və məruzəçilərə təşəkkürünü bildirib.

Sonra münsiflər heyəti tərəfindən seçilmiş ən maraqlı məruzələrin müəllifləri xüsusi hazırlanmış diplom və hədiyyələrlə mükafatlandırılıb.

Bədii özfəaliyyət kollektivlərinin musiqi proqramaları ilə yekunlaşan konfrans “ATUREK-7”-nin gedişatını özündə əks etdirən video-çarxın nümayişi ilə başa çatıb.

Sonda konfrans iştirakçıları xatirə şəkili çəkdiriblər.

Məlumat üçün onu da bildirək ki, konfrans ərəfəsi “ATUREK-7” çərçivəsində Tədris Cərrahiyyə Klinikasında Exokardioqrafiya və “Qaraciyər Elastoqrafiyası” kursuları keçirilib.

**Mənsur ƏLƏKBƏRLİ**

# Əcnəbi tələbələrin III forumu

**Mayın 23-də Azərbaycan Tibb Universitetində Bakı Beynəlxalq Tələbə Klubunun təşkilatçılığı və Azərbaycan Gənclər Fondunun maliyyə dəstəyi ilə Əcnəbi tələbələrin III forumu keçirilib .**



Toplantıda çıxış edən ATU-nun rektoru, professor Gəray Gəraybəyli əcnəbi tələbələrin 3-cü forumunun Azərbaycanda Tibb fakültəsinin yaranmasının 100 illik yubileyinə təsadüf etdiyini bildirib: “ATU bu 100 il ərzində ölkəmizin inkişafında müstəsna xidmətlər göstərib, Azərbaycan elminə, xüsusilə səhiyyə sisteminin inkişafına əvəzsiz töhfələr verib və millətimizə neçə-neçə dəyərli kadrlar bəxş edib. ATU-nun beynəlxalq səviyyədə nüfuzunu xarakterizə edən göstəricilərdən biri də, hələ 1970-ci ildən universitetimizdə əcnəbi tələbələrin təhsil almasıdır. Hələ o dövrdə Ulu Öndər Heydər Əliyevin bu sahəyə göstərdiyi diqqət və qayğı sayəsində ölkəyə əcnəbilərin axınının təməli qoyulub. Həmin siyasi kursun layiqli davamçısı cənab Prezidentimiz İlham Əliyevin həyata keçirdiyi uğurlu və beynəlxalq təcrübəyə əsaslanmış islahatlar bu prosesi daha da aktivləşdirib”.

Rektor G.Gəraybəyli hazırda Universitetdə 32 fərqli ölkədən 2000-ə yaxın tələbənin təhsil aldığını qeyd edib. Bildirib ki, Prezident cənab İlham Əliyevin sərəncamı ilə təsdiq edilmiş “2019-2023-ci illər üçün ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı”nın əsas prioritetlərindən biri də universitetlərin dünyada reytinqinin artırılmasıdır ki, bu prosesdə ölkəmizdə təhsil sahəsində əcnəbi tələbələrin sayı önəmli meyarlardan biridir.

Forum “Biz birlikdə güclüyük” devizi altında baş tutub. Layihənin keçirilməsinin əsas məqsədi Azərbaycanda təhsil alan əcnəbi tələbələrin vahid şəbəkəsini yaradaraq BBTK-nın platformasında onları daha da möhkəmləndirmək, Azərbaycan həqiqətlərinin, mədəniyyətinin, tarixinin və turizm imkanlarının, xüsusilə Qarabağla bağlı obyektiv məlumatın dünya ictimaiyyətinin diqqətinə çatdırılmasında əcnəbi tələbələrin fəaliyyətini istiqamətləndirmək və onların təşəbbüslərinə dəstək vermək, həmçinin onların problemlərinin həllinə yardımçı olmaqdır.



Forumda millət vəkili Şahin İsmayılov, Azərbaycan Gənclər Fondunun direktoru Fərid Cəfərov iştirakçılara təbriklərini çatıdırıb, bu formun hər il ənənə olaraq, davam etdirilməsi istəklərini bildiriblər. Forumda bir sıra ölkələrin səfirləri, səfirlik nümayəndələri iştirak ediblər. Forumda 10-dan çox universitetdən, müxtəlif ölkələrin 400-ə yaxın vətəndaşı iştirak edib.

Forumun bədii hissəsində Azərbaycanın ayrı-ayrı universitetlərində təhsil alan əcnəbi tələbələr öz xalqlarının mədəniyyətini təbliğ edən mahnı və rəqslər təqdim etdilər.

# “Komorbid patologiya ilə xəstələrin müalicəsinə multidissiplinar yanaşma” mövzusunda konfrans

◆ Mayın 24-də ATU-nun Tədris Terapevtik Klinikasında “Gedeon Richter” Şirkətinin sponsorluğu ilə “Komorbid patologiya ilə xəstələrin müalicəsinə multidissiplinar yanaşma” mövzusunda konfrans keçirilib.



Konfransda klinikanın Qastroenterologiya və revmatologiya şöbəsinin müdiri, professor Sahib Musayevin “Revmatoloji xəstəliklərdə xroniki ağrı sindromunun müalicəsi”, Azərbaycan Elmi-Tədqiqat Tibbi Bərpa İnstitutunun Kliniki Neyrofiziologiya Laboratoriyasının rəhbəri, professor Sədaqət Hüseynovanın “”Hipertenziv ensefalopatiyaların müalicəsində yeni imkanlar”, Azərbaycan Elmi-Tədqiqat Tibbi Bərpa İnstitutunun kardiologiya üzrə mütəxəssisi, professor İsfəndiyar Ələkbərovun “Ürək-damar xəstəliklərinin müalicəsində AÇFİ-in yeri. Lizinoprilin üstünlükləri” mövzularında çıxışları dinlənilib.

Eyni zamanda dərman vasitələrinin xəstəliklərə göstərdiyi müsbət təsirlərdən də söhbət açılıb. Konfrans öz işini geniş müzakirələrlə başa vurub.

**ATU-nun mətbuat xidməti**

# Türkmənistanın ölkəmizdəki səfiri ATU-nun qonağı olub

**Türkmənistanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Mekan İşanquliyev universitetimizdə qonaq olub. ATU-nun rektoru, professor Gəray Gəraybəyli ilə görüş zamanı tibb təhsili sahəsində əməkdaşlığın perspektivləri müzakirə olunub.**

münasibətlərin dərinləşdirilməsinə tələbat var".

Səfir Mekan İşanquliyev ATU rəhbərliyi ilə tanışlıqdan məmnun olduğunu deyib. Tibb Universitetinin qarşıdan gələn 90 illik yubileyi münasibətilə rektoru təbrik edən M.İşanquliyev Türkmənistandan olan tələbələrin təhsil səviyyəsi, aktivliyi ilə də maraqlanıb: "Bu gənclər ölkəmizi təmsil edirlər, burada təhsilə yiyələnib



Professor Gəray Gəraybəyli xarici tələbə sayına görə Azərbaycan Tibb Universitetinin ölkəmizdə lider olduğunu qeyd edərək onlar arasında Türkmənistandan olan tələbələrin azlıq təşkil etdiyini bildirib. Belə ki, ATU-nun 2 minə yaxın əcnəbi tələbəsi arasında cəmi 7 tələbə bu ölkədəndir. Rektor gələcəkdə Türkmənsitandan daha çox tələbə cəlb edəcəklərinə əmin olduğunu söyləyib: "Tibb təhsili sahəsi daim inkişafda olan bir sahədir. Ona görə də bu sektorda həmişə bilik mübadiləsinin aparılmasına ehtiyac var. Bu baxımdan, digər ölkələr kimi Türkmənistanla da əlaqələrin möhkəmləndirilməsinə, Türkmənistana qayıdacaqlar. Biz onların yüksək səviyyəli təhsil almasında və ixtisaslı kadr kimi yetişməsində maraqlıyıq. Bu baxımdan gələcəkdə ATU ilə əlaqələrin də inkişafını arzulayırıq".

Görüşdə Azərbaycan və Türkmənistan arasında tibb təhsili və səhiyyə sahəsində əlaqələrin gücləndirilməsi, hər iki ölkənin təhsil sisteminin inkişafı naminə mübadilənin dərinləşdirilməsi, bu istiqamətdə görülə biləcək tədbirlər haqqında müzakirələr aparılıb.

Görüşdə ATU-nun beynəlxalq əlaqələr üzrə prorektoru Orxan İsayev və Türkmənistanın Azərbaycandakı səfirinin birinci katibi Ovezgeldi Cumanazarov da iştirak edirdilər.

# Tədris Cərrahiyyə Klinikasının hesabatı

**ATU-nun Tədris Cərahiyyə Klinikasında bu ilin ilk 4 ayına yekun vurulub. İlk 4 ayın yekununa həsr olunmuş hesabat toplantısında klinikanın şöbələri üzrə xidmət göstərilən xəstələrin sayı, müalicə və müayinə alan şəxslər və aparılan əməliyyatlar barədə ətraflı məlumat verilib.**



Toplantıda çıxış edən klinikanın direktoru, professor Surxay Hadıyev 2019-cu ildən klinikada hər bir sahədə aparılan işlərdə irəliləyişin müşahidə olunduğunu bildirib. Qeyd edib ki, artıq Tədris Cərrahiyyə Klinikası Azərbaycanın tibb məssisələri arasında əhalinin etibar etdiyi bir məkana çevrilib. Bu da peşəkar həkimlər, müasir diaqnostik üsulların tətbiqi, dəqiq analizlərin aparılması və digər məqamlarla əlaqədardır. Bununla belə, S. Hadıyev klinikanın tədris yönümlü olduğunu xatırladaraq, müəssisənin şöbə və kafedraları arasında daha nizamlı kommunikasiyanın qurulmasına ehtiyac olduğunu vurğulayıb.



Sonra şöbə müdirlərinin 4 aylıq fəaliyyətə dair hesabatları dinlənilib.

Ümumilikdə klinika üzrə şöbələrdə 621 xəstə müalicə alıb. 17512 nəfərin müayinəsi aparılıb. Tədris Cərrahiyyə Klinikasında bu müddət ərzində 4208 əməliyyat icra olunub.

Hesabatların müzakirəsi zamanı aparılan işlərin təkmilləşdirilməsi, əhaliyə daha yaxşı tibbi xidmət göstərilməsi, tələbələrin praktiki biliklərinin gücləndirməsi üçün daha yaxşı şəraitin yaradılması ilə bağlı təkliflər səsləndirilib.

# Bakıda V Beynəlxalq Bariatrik-Metabolik Cərrahiyyə Konfransı

**Mayın 18-də Bakı Konqres Mərkəzində V Beynəlxalq Bariatrik-Metabolik Cərrahiyyə Konfransı öz işinə başlayıb. İki gün davam edən konfrans Səhiyyə Nazirliyinin, Azərbaycan Tibb Universitetinin və Azərbaycan Bariatrik və Metabolik Cərrahlar Assosiasiyasının birgə təşkilatçılığı ilə keçirilib.**

Dünyanın 30-a yaxın ölkəsindən (Türkiyə, Xəzəryanı dövlətlər, Almaniya, Birləşmiş Ərəb Əmirlikləri, Mərkəzi Asiya ölkələri və s.) gələn, 9 xarici dərnəkdə, 27 müxtəlif beynəlxalq universitet klinikasında çalışan 30-a yaxın professorun iştirakı ilə keçirilən tədbirdə piylənmə cərrahiyyəsi, metabolik (II tip diabet) cərrahiyyə, metabolik xəstəliklər zamanı endokrinoloji müalicə və die-



toloji üsullar müzakirə olunub.

Konfransda çıxış edən millət vəkili İlham Məmmədov son illər Azərbaycandakı iqtisadi tərəqqidən danışıb, bu inkişafın ölkədə səhiyyənin inkişaf etməsinə, əhalinin sağlamlığının qorunması sahəsindəki problemlərin həllinə şərait yaratdığını bildirib. Ölkə rəhbərliyi tərəfindən müəyyən edilmiş uzunmüddətli inkişaf strategiyasının mühüm istiqamətlərindən biri kimi səhiyyənin inkişaf etdirilməsi və əhalinin dünya standartlarına cavab verən tibbi yardımla təmin olunması üçün genişmiqyaslı islahatların həyata keçirildiyi barədə məlumat verilib. Diqqətə çatdırılıb ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə ən müasir tələblərə cavab verən səhiyyə infrastrukturunun yaradılması, yeni xəstəxanaların tikintisi, fəaliyyətdə olan tibb müəssisələrinin yenidən qurulması prosesi geniş vüsət alıb.

Tədbirin təşkilat komitəsinin sədri, ATU-nun I cərrahi xəstəliklər kafedrasının əməkdaşı, Azərbaycan Bariatrik və Metabolik Cərrahlar Assosiasiyasının sədri, laparoskopik-bariatrik cərrah Taryel Ömərov konfrans barəsində jurnalistlərə məlumat verərək deyib: "Konfrans 18 May-Avropa piylənmə ilə mübarizə günü münasibətilə təşkil olunub. 9 xarici ölkə nümayəndələri, 8 beynəlxalq dərnək üzvlərinin iştirak etdiyi konqresdə 52 məruzəçi çıxış edəcək, 7 akademik panel keçiriləcək. Tədbir təbabətin ən müasir nailiyyətlərindən biri olan metabolik cərrahiyyəyə həsr olunub. Tədbiri keçirməkdə əsas məqsədimiz dünyada aparılan əməliyyatların və tibbi yeniliklərin Azərbaycanda da tətbiq edilməsinə dair ən müasir üsullarla həkim və tələbələrimizi tanış etməkdir. Belə ki, bu konfransda dünyanın müxtəlif dövlətlərindən gəlmiş professorlar bizimlə öz təcrübələrini bölüşürlər".

Bildirilib ki, hazırda cəmiyyətdə ən aktual problemlərdən biri də piylənmədir: "Bu problemin ölkəmizdə yayılmasının qarşısını almaq, o cümlədən sağlam qidalanma, piylənməyə yol açan amillərlə mübarizədə əhalinin maarifləndirilməsi baxımından bu cür tədbirlərin keçirilməsi çox vacibdir. Dünyada artıq 70 ildir ki, bariatrik cərrahi əməliyyat gündəmdədir. Bariatrik cərrahi əməliyyatı sadəcə estetik əməliyyat deyil. Piylənmədən əziyyət çəkən insanlarda kardioloji problemlər, II tip şəkərli diabet, yağlı qaraciyər sindromu kimi çox ağır xəstəliklər baş verir ki, piylənmə düzəlmədən bu xəstəliklər aradan qalxmır. Diyetadan effekt ala bilməyən və bədən kütlə indeksini keçən insanlar bu əməliyyata məruz qalırlar. 2018-ci ildə dünyada 500 min bariatrik cərrahiyyə əməliyyatı aparılıb. Onlardan təkcə 228 mini ABŞ-a aiddir. Azərbaycanda son 6 ildə 2 minə yaxın bariatrik cərrahiyyə əməliyyatı həyata keçirilib".

Konfrans mövzuya dair müzakirələrlə davam etdirilib.



Konfrans ərəfəsi tədbir iştirakçıları ilə Azərbaycan Tibb Universitetinin rəsmiləri arasında görüş keçirilib. Görüşdə Türkiyə, Belçika, Rusiya, Ukrayna və digər ölkələrdən olan qonaqlar iştirak ediblər.

ATU-nun elmi işlər üzrə prorektoru Rauf Bəylərov belə bir beynəlxalq konfransın Bakıda keçirilməsinin ölkənin tibb ictimaiyyəti, o cümlədən Tibb Universiteti üçün böyük əhəmiyyət daşıdığını bildirib.

Qonaqları ATU-nun tarixi və fəaliyyəti ilə tanış edən prorektor universitetin 100 il əvvəl yaradılan Tibb fakültəsi əsasında formalaşdığını, gələn il isə ATU-nun özünün 90 illiyinin qeyd olunacağını bildirib. O, bu gün ölkənin aparıcı ali məktəblərindən biri kimi ATU-nun xarici ölkələrdəki ali tibb müəssisələri ilə geniş əlaqələrə malik olduğunu qeyd edib.

# ATU ilə HASUDER arasında əməkdaşlıq başlayır

**Azərbaycan Tibb Universitetində Türkiyənin Halk Sağlığı Uzmanları Dərnəyinin (HASUDER) nümayəndə heyəti və Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Azərbaycandakı ofisinin rəhbəri xanım Hande Harmancı ilə görüş keçirilib.**

ATU-nun beynəlxalq əlaqələr üzrə prorektoru Orxan İsayev və Tədris Terapevtik Klinikasının direktoru Samir Allahverdiyevin iştirak etdiyi görüşdə Azərbaycanda ictimai səhiyyə sahəsində görülən işlər barədə qonaqlara məlumat verilib. Həmçinin, qardaş Türkiyə ilə Azərbaycan arasında ictimai səhiyyə sahəsində əməkdaşlıq perspektivləri müzakirə olunub.



Görüşdə HASUDER ilə universitetimiz arasında əməkdaşlıq memorandumunun imzalanması haqqında ilkin razılıq əldə olunub, sazişin şərtləri müzakirə edilib. Memorandumda bir sıra önəmli məsələlər, o cümlədən Azərbaycan Tibb Universitetinin Tibbi profilaktika fakültəsini bitirmiş tələbələrin diplomlarının Türkiyədə tanınması məsələsi də yer alıb.

Görüşün sonunda HASUDER-in təmsilçiləri qurumun fəaliyyəti və təklif etdiyi imkanlarla bağlı təqdimat keçirdilər.

Görüşdə ATU-nun İctimai səhiyyə fakültəsinin dekanı, professor Anar Ağayev, həmin fakültənin elmi katibi, baş müəllim Yaqut Hacıyeva və Ailə təbabəti kafedrasının assistenti İnarə Əlizadə də iştirak ediblər.

Türkiyəli mütəxəssislərin səfərinin məqsədi HASUDER ilə Azərbaycan Səhiyyə Nazirliyi və ATU arasında təhsil, elmi araşdırmaların aparılması sahəsində iş birliyinin əsasını qoymaqdan ibarətdir. HASUDER-in nümayəndə heyətinin tərkibinə ictimai səhiyyə sahəsində çalışan 16 nəfər daxil olub.

**ATU-nun mətbuat xidməti**

# İmtahan sessiyası uğurla davam edir

**Azərbaycan Tibb Universitetində yaz semestrinin yay imtahan sessiyası uğurla davam edir. 2018/2019-cu tədris ilinin buraxılış kurslarında dövlət imtahanlarından əvvəl keçirilən imtahanlar artıq yekunlaşmaqdadır.**



İmtahana Nəzarət Qrupunun sədri Zümrüd Abaszadə imtahanın gedişi barədə qısa məlumat verərək nəzarətçilərin kifayət qədər təlimatlandırıldığını, indiyədək neqativ hallarla qarşılaşmadıqlarını söyləyib. Onun sözlərinə görə, buraxılış imtahanlarında üzürlü səbəbdən iştirak edə bilməyən, qeyri-müvəffəq qiymət alan tələbələr üçün də ara günlərində imtahanlar keçirilir ki, onlar iyun ayında başlayan imtahanlarda iştirak etmək hüququ qazansınlar.

İmtahan Mərkəzinin müdiri Ülkər Cəfərova isə öz açıqlamasında imtahan prosesinin ümumi mənzərəsini diqqətə çatdırıb: "Bildiyiniz kimi, yeni tədris ilindən payız və yaz semestrlərində I kursların aralıq qiymətləndirilməsi elektron şəkildə bizim mərkəz tərəfindən təşkil olunur. Aprelin 22-dən mayın 1-ə qədər cədvələ uyğun olaraq tibb fakültələrinin 2570 nəfər I kurs tələbəsi aralıq qiymətləndirmədə iştirak edərək imtahanları uğurla veriblər. Qarşıya belə bir tələb qoyulub ki, test suallarına tədrisin 10-cu həftəsinə qədər olan mövzular salınmalıdır. Yəni tələbənin keçmədiyi mövzuya aid bircə sual da testə salınarsa narazılıq doğurur və apellyasiya şikayətinə əsas yaradır ki, bunun da təşkili çox ağır bir prosesdir. Təbii ki, yükün ağırlığı ilk növbədə İmtahan Mərkəzinin üzərinə düşsə də, kafedralarsız, müəllimlərsiz, onların rəyi olmadan bu işi yerinə yetirmək mümkün deyil".

Bir neçə fənnin birləşdiyi imtahanların təşkilinə xüsusi diqqət yetirildiyini, xırda texniki səhvlərin anında və yerindəcə həll olunduğunu bildirən Ü.Cəfərova imtahan suallarının Təhsilin keyfiyyətinin təminatı və innovasiya şöbəsinin bütün fənlər üzrə hazırladığı proqramlara uyğun olaraq İmtahan Mərkəzi tərəfindən seçildiyini, 46 nəfərlik ekspert qrupu ilə birlikdə çox gərgin iş rejimində çalışdıqlarını, ortaya çıxan problemin dərhal aradan qaldırıldığını deyib.

İmtahanın gedişini izləyən universitetin tədris və müalicə işləri üzrə prorektoru, professor Sabir Əliyev bildirib ki, əvvəllər VI kurslarda semestrin sonunda yalnız məqbullar olur və dövlət imtahanları aparılırdı. Dövlət imtahanlarından öncə bu cür imtahanların aparılmasının tələbələrdə müəyyən mənada narahatçılıq doğurduğunu deyən prorektor qeyd edib ki, buna baxmayaraq imtahan prosesində ciddi bir problemimiz olmayıb: "Çünki imtahan prosesinin iştirakçıları yaxşı anlayır ki, bu imtahanların keçirilməsi kredit sisteminin tələbləri ilə bağlıdır. Belə ki, tədris olunan fənlər semestrin sonunda imtahan vasitəsilə qiymətləndirilməlidir. Düşünürük ki, semestrin sonunda bir neçə dəfə imtahan aparılmasının tələbələr üçün çətinlik yaratdığını nəzərə alaraq, gələcəkdə bu məsələlərə yenidən baxıla bilər".

Universitet rəhbərliyinin bütövlükdə imtahanın gedişinə nəzarət etdiyini söyləyən S.Əliyev daha böyük imtahan prosesinin gələn ayın əvvəlində başlayacağını və uğurla yekunlaşacağına əminliyini bildirib.

# "İmmunpatoloji xəstəliklər"ə dair Azərbaycanda I Beynəlxalq elmi-praktik konfrans

**Mayın 17-də ATU-nun Tədris Terapevtik Klinikasında "İmmunpatoloji xəstəliklər"ə dair Azərbaycanda I Beynəlxalq elmi-praktik konfrans öz işinə başlayıb.**





Dünya Birinci İmmun Çatışmazlığı Həftəsi çərçivəsində keçirilən konfransda açılış nitqi ilə çıxış edən universitetin elmi işlər üzrə prorektoru, dosent Rauf Bəylərov bildirib ki, bu problem bütün dünyada özünü qabarıq şəkildə göstərdiyi üçün diqqət mərkəzindədir. İmmun sisteminin insan orqanizmində əvəzsiz rolundan danışan dosent Rauf Bəylərov immun sisteminin bütün orqan sistemi ilə sıx əlaqədə olduğunu söyləyib. Ona görə də dinləniləcək məruzələrin tibb sahəsində çalışan hər kəs üçün maraqlı olacağını diqqətə çatdıran prorektor qeyd edib ki, yerli mütəxəssislərlə yanaşı xaricdən gələn tanınmış mütəxəssislərin iştirakı konfransın əhəmiyyətini daha da artırır.

Azərbaycan Allerqoloq, İmmunoloq və İmmunoreabilitoloqlar Cəmiyyətinin prezidenti, professor Amaliya Əyyubova bu sahənin inkişaf yolundan söhbət açıb. O, Azərbaycanda immunologiyanın nəzəri cəhətdən kifayət qədər yaxşı öyrənildiyini bildirərək son vaxtlar praktiki fəaliyyətdə də xeyli uğurlar qazanıldığını, mövcud problemlərin həlli istiqamətində məqsədyönlü işlər görüldüyünü vurğulayıb.

"Yaşamaq şansı" adlanan sənədli filmin nümayişindən sonra professor Gülnarə Nəsrullayeva (Azərbaycan) "İmmundefisitlərin aşkarlanmasında müasir diaqnostik metodlar və müalicə taktikası", professor Lalə Allahverdiyeva (Azərbaycan) "Respirator allergiyası olan xəstələrdə spesifik immunoterapiyanın müxtəlif üsullarının müqayisəli effektivliyi", professor Nima Rezaei (İran) "Birincili immundefisitli xəstələrə yanaşma taktikası" və dosent Aynur Ağayeva (Azərbaycan) "Xroniki övrə: səbəbləri, formaları, diaqnostika və müalicə prinsipləri" mövzusunda məruzələrlə çıxış ediblər.

Daha sonra konfrans öz işini Landmark Biznes Mərkəzində davam etdirib.

* * *

Konfrans çərçivəsində xarici ölkələrdən gələn mütəxəssislərlə ATU rəsmiləri arasında görüş olub.

ATU-nun elmi işlər üzrə prorektoru, dosent Rauf Bəylərov qonaqları universitetin rektoru, professor Gəray Gəraybəylinin adından salamlayıb.

Qonaqlarla söhbət zamanı Azərbaycanda immunologiya sahəsindəki mövcud vəziyyət, bu sahədəki inkişaf perspektivləri, təşkil olunan seminarın qarşılıqlı əlaqələrin güclənməsinə töhfəsi və digər məsələlər müzakirə olunub.

Görüş zamanı Azərbaycan Tibb Universiteti ilə Universal Elmi Təhsil və Tədqiqat Şəbəkəsi (UETTŞ) arasında anlaşma memorandumu imzalanıb.

Professor Nima Rezai ATU ilə əməkdaşlığa başlanmasından məmnunluğunu bildirib.

# Magistr və rezidentlər üçün seminar

**Əczaçılıq fakültəsinin magistr və rezidentləri üçün "Dərman vasitələrinin keyfiyyətinə nəzarət üsulları" mövzusunda seminar keçirilib.**





Seminarı giriş sözü ilə Əczaçılıq kimyası kafedrasının müdiri, professor Tahir Süleymanov açıb. Əczaçıların qarşısında duran vəzifələrdən söhbət açan T.Süleymanov bildirib ki, əsas məqsədimiz əhalinin müalicə-profilaktika məsələlərini keyfiyyətli və təhlükəsiz dərman vasitələri ilə təmin etməkdir: "Burada söhbət təkcə dərman vasitələrinin satışı və çatdırılmasından getmir, həm də yeni dərman vasitələrinin yaradılması üsulları günümüzdə aktual məsələlərdən hesab olunur. Yeni dərman vasitələrinin hazırlanmasından tutmuş, dərmanların müalicə-profilaktika müəssisələrinə çatdırılması, o cümlədən dərman vasitələrinin keyfiyyətinə nəzarət qarşımızda duran prioritet məsələlərdəndir. Bu seminarın da əsas məramı və məqsədi dərman vasitələrinin keyfiyyətinə necə nəzarət etməyi izah etməkdən ibarətdir."

Kafedra müdiri Azərbaycan Respublikası Prezidenti yanında Elmin İnkişafı Fondunun dəstəyi ilə kafedranın nəzdində əczaçılıq üzrə elmi-tədqiqat laboratoriyasının yaradıldığını bildirib. Laboratoriyada yeni dərman vasitələrinin təşkilinə və onların standartlaşması yönündə məqsədyönlü işlərin aparılmasına hər cür şəraitin yaradıldığını qeyd edib.

Seminarda Əczaçılıq kimyası kafedrasının baş müəllimi Fuad Məmmədovun "Yüksək effektivli maye xromatoqrafiya üsulunun əczaçılıq analizində tətbiqi", həmin kafedranın dosenti Vaqif İskəndərov "Spektrofotometriyanın əczaçılıq analizində tətbiqi", Ümumi və toksikoloji kimya kafedrasının professoru Eldar Qarayev isə "İnfraqırmızı spektroskopiyanın əczaçılıqda tətbiqi" mövzularında çıxış ediblər.

Farmakologiya kafedrasının dosenti Svetlana Babayeva keçirilən seminarın magistr və rezidentlər üçün əhəmiyyətindən söhbət açaraq, bu tipli tədbirlərin davamlı olacağını qeyd edib, seminar iştirakçılarına və məruzəçilərə dərin təşəkkürünü bildirib.

# Universitet tələbələrinin "Tibb və hüquq" mövzusunda forumu

**Mayın 20-də Azərbaycan Tibb Universiteti və Bakı Dövlət Universitetinin Tələbə Gənclər Təşkilatlarının birgə təşkilatçılığı ilə BDU-nun və eyni zamanda adıçəkilən universitetin nəzdində yaradılan tibb fakültəsinin 100 illik yubileyi münasibətilə iki universitetin tələbələri arasında "Tibb və hüquq" mövzusunda müzakirə forumu keçirilib.**





Forumu ATU-nun TGT-nin sədri Rauf Vəliyev açıb. O, qeyd edib ki, forumun iki mərhələdə keçirilməsi nəzrədə tutulub: "İlkin mərhələ BDU-da baş tutub. İkinci mərhələ isə bu gün ATU-da başa çatacaq. Hesab edirəm ki, forumda toxunulan eyni mövzulara tibbi və hüquqi baxımdan yanaşmalar tələbələr üçün böyük maraq doğuracaq".

Qeyd edək ki, forum çərçivəsində ATU-nun I müalicə-profilaktika fakültəsinin tələbələri Fərhan Namazov, Mirxəzər İsmayılov, BDU-nun hüquq fakültəsinin tələbələri Xanım Musayeva "Evtanaziya", "Yaşam və ölüm" və digər mövzularda çıxışlar ediblər. Mövzular ətrafında hər iki universitet tələbələri arasında maraqlı müzakirələr başlayıb. Tələbələr müzakirələr zamanı qarşılaşdıqları şəraitdən asılı olaraq tibbi və hüquqi baxımdan necə davranmaqla bağlı xeyli məlumat əldə ediblər. Forum geniş diskussiya şəraitində başa çatıb.

**ATU-nun mətbuat xidməti**

# 101 ilin sehrli mücrüsü: Cümhuriyyət dövründə dil, mətbuat və kitabxana işi

**XX əsrin əvvəllərində Azərbaycanda elmi sahədə vəziyyət o qədər ürəkaçan deyildi. Belə ki, ölkədə nəinki məktəblərdə, kitab və çap sahəsində də çoxlu çatışmazlıqlar var idi. Ölkənin təhsil sistemi zəif olduğu üçün gənclər təhsil dalınca xaricə üz tuturdular. Bir sıra neft milyonçuları xalqı bu savadsızlıqdan, ruhani təsirindən qurtarmaq üçün əllərindən gələni edirdilər. Böyük çətinliklərə baxmayaraq Hacı Zeynalabdin Tağıyevin qızlar məktəbini açması bunun bariz nümunəsidir. Cümhuriyyətin əsasını qoyanlar həm də ölkədə ədəbiyyatın, təhsilin inkişafında əvəzsiz xidmətləri olan şəxslər idi.**



Cümhuriyyət qurularkən ən ümdə məqsəd dil və mətbuatımızın inkişafı idi. Rəsmi sənədlər türk dilində olmalı idi. Bu sənədlər türk dilində olmadıqda parlamentin sədr müavini H. Ağayev belə dərkənar qoyurdu: "Ərizə türkcə lisanda olmadığı üçün əncamsız sayılır". Kitabxanalarda, təhsil müəssisələrində türk dilində ədəbiyyatın olmadığına görə 1918-1920-ci illərdə Türkiyədən 20 min nüsxədən artıq dərslik, dərs vəsaiti alınaraq məktəb kitabxanalarına verilmişdir. Məktəbləri tez bir zamanda türkləşdirmək üçün yaradılan Nəşriyyat və Tərcümə Komissiyasının yardımı ilə ibtidai və orta məktəb dərs kitabları yazılaraq nəşr edilmişdir. Orta məktəblərin bir hissəsi milliləşdirilmiş, ölkənin müxtəlif yerində 7 Müəllimlər İnstitutu və bir Müəllimlər Seminariyası açılmışdır. Bakıda Universitet açılmış, hökumət hesabına 100-ə yaxın tələbə təhsil almaq üçün Avropanın müxtəlif paytaxtlarına göndərilmişdir. Türkiyədən 50-yə yaxın müəllim dəvət olunmuşdur.

Yeni qurulmuş respublikada ciddi maliyyə çətinliyinə baxmayaraq, parlament 18 sentyabr 1919-cu ildə xalq məktəbləri kitabxanalarına türk dilində kitab almaq üçün 1 milyon manat ayrılması haqqında xüsusi qanun qəbul edir. Sənədə əsasən məktəb kitabxanaları Azərbaycanda nəşr edilən kitab, jurnal, məcmuə və qəzetlərin məcburi nusxələri ilə təmin edilməli idi. Həmçinin xarici ölkələrdən alınan kitabların ilk növbədə kitabxanalara verilməsi, kitab mağazalarının anbarlarında saxlanılan ədəbiyyatın kitabxanalara paylanması və s. məsələlər öz əksini tapmışdır. Cümhuriyyət hökuməti yeni kitabxanalar təşkil etməklə mövcud kitabxanaların fəaliyyətini davam etdirməsinə, onların maddi-texniki bazasının möhkəmlənməsinə diqqət yetirirdi. 1919-cu ildə Balaxanı-Sabunçu, Bibiheybət və Ağşəhər fəhlələri üçün kitabxanalar açıldı. Həmkarlar İttifaqları nəzdində də kitabxanalar təşkil olunurdu. Kitab fondu 2000 cild olan ən böyük kitabxana Bakıda açıldı. Bundan başqa, Bakıda o dövrün əhəmiyyətli hadisəsinə çevrilən Sabir adına kitabxananın açılışı maarifçi kütlənin sevincinə səbəb oldu. Xalqın maarifllənməsi istiqamətində "İqla" cəmiyyəti nəzdində fəaliyyət göstərən kiatbxana da az əhəmiyyət daşımırdı. Müxtəlif nazirliklər öz əməkdaşları üçün kitabxana açırdılar. Səhiyyə Nazirliyi öz nəzdində kitabxananın açılmasına 10 min manat ayırmışdı.

Həmçinin, bu dövrdə "Kaspi" qəzetinin redaktoru Ə.Topçubaşov rus-azərbaycan kitabxanasını açdı. M.Sidqi Naxçıvanda, A.Səhhət Şamaxıda kitabxana açmışdı.

"Şərqdən bolşeviklərin, qərbdən ermənilərin əhalini qırdığı bir vaxtda ədəbiyyatda poeziya üstünlük təşkil edirdi. Rus və erməni təzyiqini dəf etmək çox çətin idi. Abdulla Şaiq vəziyyətdən çıxış yolunu türk xalqlarının mənəvi və sosial birliyində görürdü. Bu ideya onun "Yeni ay doğarkən" şeirində öz əksini tapmışdır. Şairlərimiz öz əsərlərində Qafqaz İslam Ordusunun şücaətindən bəhs edirdilər. Onlar əsərlərində Azərbaycanın müstəqilliyini qorumağa, öz xilaskarlarını tanımaları üçün onları birliyə çağırırdı. 1918-ci ildə Bakıda "Türk ocağı" cəmiyyəti yaradıldı. Məqsəd Azərabaycan və Osmanlı türkləri arasında mədəni əlaqələri genişləndirməkdən ibarət idi. Həmçinin, "Türk gecələri" adlanan təntənəli musiqi konsertləri təşkil edilirdi. Bundan başqa türk xalqlarının etnoqrafiyası və məişətinə həsr olunmuş "Türk ocağı", "Türkmən çadrası", "Atəşgah" kimi sərgilər də təşkil olunmuşdur. 1918-ci il oktyabrın 24-də Bakıda "Türk ədəbiyyatı lisanı və Türk cərəyanı-əfkarı" mövzusunda konfrans keçirildi. Bu konfrans Azərbaycan türklərinin Türkiyə haqqında təsəvvürlərinin daha da genişlənməsinə yönəlmişdi.

Bu dövrdə 3 dildə mətbu orqan fəaliyyət göstərirdi. Azərbaycan dilində aşağıdakı mətbu orqanlar nəşr olunurdu: "Azərbaycan", Açıq söz", "Yeni Həyat", "Səda", "Tuti", "Dəbistan", "Kəlniyyət","Mədəniyyət", "Hümmət", "İstiqlal", "Zənbur", "Babayi Əmir", "Əkinçi və fəhlə". 1918-1920-ci illərdə Azərbaycanda istər milli, istərsə də bolşevik cəbhəsinə məxsus publisistlər satirik üslubdan istifadə edirdilər. Bu illərdə "Şeypur", "Zənbur", "Tartan-partan", "Məşəl" adlı jurnallarda satirik publisistika üstünlük təşkil edirdi.

Beləliklə, 101 il əvvəl "Bir kərə yüksələn bayraq bir daha enməz" şüarı ilə Cümhuriyyət quran M.Ə.Rəsulzadə şəxsiyyəti və onun miras qoyduğu dövlətçilik ənənəsi 70 il sonra Ümummilli Lider H.Əliyevin qayıdışı ilə bərpa olundu və hal-hazırda onun layiqli davamçısı İ.Əliyev tərəfindən uğurla həyata keçirilir.

**Səadət HÜSEYNLİ,**
*Əsaslı kitabxananın biblioqrafı*

*Y u b i l e y*

# Ömrünü elmə həsr edən insan

**Bu günlərdə Yoluxucu xəstəliklər kafedrasının assistenti, həkim-infeksionist, bacarıqlı pedaqoq Suqra Mövsüm qızı Hüseynova - Sultanovanın 80 yaşı tamam oldu.**

Suqra xanım ilk əmək fəaliyyətinə Şamaxı tibb texnikumunu bitirərək tibb bacısı kimi başlasa da, oxumaq, elm sahəsində çalışmaq arzusu onu 1963-cü ildə Azərbaycan Tibb İnstitutuna gətirdi. İnstitut illərində tələbə elmi cəmiyyətinə rəhbərlik etdi, özü də neçə - neçə məqalələrin müəllifi kimi tələbə və müəllimlərini sevindirdi. Elə ona görə də institutu əla qiymətlərlə bitirərək mikrobiologiya kafedrasında saxlanıldı. Kafedrada çalışdığı illər ərzində özünü əsl elm fədaisi kimi göstərdi, əldə etdiyi nailiyyətlər onu nəinki Azərbaycanda, həmçinin keçmiş SSRİ məkanında tanıtdırdı. Təsadüfi deyil ki, Suqra xanım "Elmə, biliyə, zəkaya görə" SSRİ respublikaları arasında keçirilmiş müsabiqədə İxtiraçılar və Səmərələşdiricilər Cəmiyyətinin mükafatı laureatı adını almışdır.

Həm də Suqra xanım keçmiş SSRİ-də Ali Patentovedlik İnstitutunun ilk azərbaycanlı məzunu kimi elmi ixtiralara görə 40–dan artıq müəlliflik şəhadətnamələrinə layiq görülmüşdür. Onun yerinə yetirdiyi elmi işdə məxfi müayinə materialları, bioloji aktiv maddələr, kosmonavtların geyim əşyaları tərkibində, polimerlərin tərkibində və s. olan maddələr öyrənilmişdir. Efir yağlarının tərkibini öyrənən ilk alimlərdən biri də Suqra xanım olmuşdur. S.Hüseynova 1989-cu ildə Moskvada ilkin, Bakıda son "Bioloji aktiv maddələrin tədqiqinə dair" namizədlik dissertasiyasını müvəffəqiyyətlə müdafiə edərək tibb elmləri namizədi adını almışdır. Lakin klinikaya bağlılıq həvəsi onu hec zaman tərk etməmiş, hələ tələbəlikdən Qədirli adına hövzə xəstəxanasında tibb bacısı kimi fəaliyyət göstərmişdir. O, mikrobiologiya kafedrasında işləyə – işləyə 3 saylı xəstəxanada da növbətçi həkim kimi çalışmışdır. Odur ki, Suqra xanım 1993-cü ildə öz istəyi ilə Yoluxucu xəstəliklər kafedrasına keçmiş, yüksək ixtisaslı həkim kimi neçə-neçə xəstəni müalicə etmişdir.



S.Hüseynova 1977-ci ildən 1989-cu ilə qədər müxtəlif vaxtlarda Moskva və Leninqrad şəhərlərində öz ixtisası üzrə təkmilləşdirmə kurslarında olmuşdur.

Bu gün Suqra xanım Yoluxucu xəstəliklər kafedrasında öz tələbələrinə elmin sirlərini öyrədir, yeniliklərindən danışır, onlara daim irəli getməyi tövsiyyə edir.

Suqra xanım 250-dən çox məqalənin, bir sıra səmərələşdirici təklifin müəllifidir. O, şərqşünas alim, akademik Vasim Məmmədəliyevin "Yaxşı ziyalı dindar olmalıdır" sözlərini tez–tez təkrar edir. Həqiqətən də böyük məna kəsb edən bu dəyərli söz əqidəsi, imanı düz olan ziyalı qadın Suqra xanımın özünə məxsusdur.

Biz də Suqra xanımı 80 illik yubileyi münasibətilə ürəkdən təbrik edir, gözəl insan, səmimi dost olan həmkarımıza can sağlığı arzulamaqla yanaşı bu kiçik yazını onun öz şeri ilə bitirmək istəyirik:

*Zəka hər düyümü açdığı günü*
*Görməyə mənim də ömrüm çatacaq.*
*Uzadıb 100 illər insan ömrünü*
*Təbabət hər ömrə ömür qatacaq.*

**Yoluxucu xəstəliklər kafedrasının əməkdaşları**

# Tibbdə jest dili

**◆ ATU-nun Tələbə Həmkarlar İttifaqı Komitəsi (THİK) tələbələrin asudə vaxtlarını səmərəli keçirmələri üçün vaxtaşırı tədbirlər və yarışlar təşkil edir. Mayın 17-də THİK-nin təşkilatçılığı ilə universitetdə "Tibbdə jest dili" mövzusunda keçirilən seminar növbəti belə tədbirlərdən idi.**





Seminarı açan universitetin THİK-nin sədri Elvin Kərimli təşkil olunan seminarın gələcəyin həkimləri olacaq tələbələr üçün olduqca əhəmiyyət kəsb etdiyini diqqətə çatdırıb. Bildirib ki, bu dəfəki seminar ATU-nun II Müalicə-profilaktika fakültəsinin III kurs tələbəsi Nərgiz Namazlının təklifi ilə baş tutub. Bu kimi təkliflər digər tələbələr tərəfindən irəli sürülərsə, onun rəhbərlik etdiyi təşkilat tərəfindən dəyərləndiriləcək.

"Deaf Community" şirkətinin baş təlimçisi Turan Məmmədli bu cür əhəmiyyətli bir seminarın Tibb Universitetində keçirilməsinə şərait yaratdığı üçün universitetin rektoru, professor Gəray Gəraybəyliyə və təşkilatçılara dərin təşəkkürünü bildirib. Eşitmə və nitqində qüsur olan şəxslərlə ünsiyyət saxlamaq üçün gələcəyin həkimlərinin "jest dili"ndə bəzi işarə və terminləri öyrənməsinin vacibliyini vurğulayıb. Bu səbəbdən də "jest dili" və dilin mahiyyəti barəsində tələbələrə ətraflı məlumat verib.

"Səssizlik ən gözəl dildir" şüarı ilə başlanan seminar tələbələrin birgə səsləndirdiyi "Əsl əngəllər, qarşılarına çıxan əngəlləri aşa bilməyənlərdir" şüarı ilə başa çatıb.

**ATU-nun mətbuat xidməti**

# ATU-da "BooMo" kitab və kino klubu açılıb

**ATU-nun İctimai səhiyyə fakültəsinin Tələbə Gənclər Təşkilatı idarə heyətinin təşəbbüsü ilə yaradılan "BooMo" kitab və kino klubunun açılışı olub.**



Tələbə Gənclər Təşkilatının İctimai səhiyyə fakültəsi üzrə sədri Xətayə Quliyeva klubun təsis olunmasının məqsədi və fəaliyyət istiqamətləri haqqında məlumat verib. Bildirib ki, burada gənclərdə mütaliə vərdişinin gücləndirilməsi və filmlərin birgə izlənməsi ilə bağlı müxtəlif layihələrin icra olunması planlaşdırılır.

ATU-nun TGT-nin sədri Rauf Vəliyev klubun yaradılması və fəaliyyətini tələbələrin asudə vaxtının təşkili, motivasiyalarının artırılması üçün əla fürsət kimi dəyərləndirib. Qeyd edib ki, İctimai səhiyyə fakültəsi univesitetimizin, eləcə də təşkilatımızın sosial-ictimai həyatında xüsusi rola sahibdir. O, təşkilatımızın fakültə nümayəndəliyinə göstərdiyi xüsusi diqqət və dəstək üçün fakültə dekanı, professor Anar Ağayevə təşəkkürünü çatdırıb.

Görülən işlərin tələbələrin asudə vaxtının daha düzgün təşkili və tələbələr arasında birlik,dostluq münasibətlərinin formalaşması üçün əhəmiyyətli olduğunu qeyd edən təşkilat sədri klubun kitab fonduna ilk kitabı bağışlayıb.

Sonra tədbir iştirakçıları birlikdə "Edge of Tomorrow" filmini izləyiblər.

# Uşaqların Beynəlxalq Müdafiəsinə həsr olunmuş seminar

◆ Mayın 21-də ATU-nun Tədris Terapevtik Klinikasında Azərbaycan Respublikasının Allerqoloq və İmmunoloqlar Assosiasiyasının və Rusiya Uşaq Allerqoloq və İmmunoloqlar Assosiasiyasının birgə təşkilatçılığı ilə Uşaqların Beynəlxalq Müdafiəsinə həsr olunmuş seminar keçirilib.



"Uşaqlarda allergik xəstəliklər" mövzusu ilə işinə başlayan seminarı ATU-nun elmi işlər üzrə prorektoru, dosent Rauf Bəylərov açaraq Rusiya Federasiyasından gələn böyük nümayəndə heyətini və iştirakçıları salamlayıb.



İki ölkə arasında əlaqələrin tarixi köklərinin olduğunu qeyd edən R.Bəylərov bu gün də bu əlaqələrin bütün sahələrdə inkişaf etdirildiyini deyib. O, həmçinin hər iki ölkənin alim və tələbələri arasında elmi mübadilənin aparılmasından söhbət açaraq bu seminarın uşaqların müalicə və müayinəsi, müdafiəsi, onlara göstərilən qayğının artırılması istiqamətində faydalı olacağını vurğulayıb.

Rusiya Uşaq Allerqoloq və İmmunoloqlar Assosiasiyasının vitse-prezidenti, professor Yuri Smolkin də seminarın açılışında çıxış edərək Azərbaycanda olmaqdan məmnunluğunu dilə gətirib və müştərək müzakirələrin iştirakçılarda maraq doğuracağına əminliyini bildirib. Bundan sonra uşaqlarda müalicə metodlarına müasir yanaşmanın müxtəlif aspektləri müzakirə olunub.

Alimlərimizdən professor Lalə Allahverdiyevanın "Uşaqlarda bronxial astma və virus infeksiyasına müasir yanaşma", professor Amaliya Əyyubovanın "Uşaqlarda atopik dermatitin erkən diaqnostikası" mövzusunda etdiyi çıxışlar xüsusi diqqət çəkib.

Rusiyalı alimlərdən professor Yuri Smolkinin "Allergik rinitin müalicəsinə müasir yanaşma", "Uşağın dərisinə qulluq və epidermal qatın bərpası", "Övrə xəstəliyinin diaqnostikası və müalicəsi", professor Andrey Malyavinin "Bronxağciyər xəstəliklərində mukolitik terapiyanın rolu", t.e.n. Nataliya Miqaçovanın "Tez-tez xəstələnən uşaqlarda immunitetin vəziyyəti və müalicə problemləri", "Atopik dermatitin birincili profilaktikası: bu reallığa uyğun olacaqmı?" mövzusunda etdikləri çıxışlar da böyük maraqla qarşılanıb.

Seminar geniş diskussiya şəraitində işini başa çatdırıb.

# Uşaqların əqli inkişafını qiymətləndirmək məqsədilə təlim

**Beynəlxalq İnkişafın Dəstəklənməsi və İzlənilməsi Rəhbərliyi (İDİR) uşaqlar arasında inkişafın ləngiməsi hallarının erkən aşkarlanması, vaxtında müalicə olunması və əlilliyin azalması məsələləri ilə məşğul olur.**



ATU-nun Tədris Terapevtik Klinikasında da bu istiqamətdə təlimlər təşkil edilib. ATU-nun Uşaq xəstəlikləri kafedrasının dosenti Nigar Sədiyeva və Bakı Uşaq-Bərpa Mərkəzinin mütəxəssisi Təranə Seyidməmmədova tərəfindən aparılan treninqdə təlim iştirakçılarına İDİR nəzəriyyəsi, fəlsəfəsi və konsepsiyası haqqında ətraflı məlumat verilib.

İDİR sualları ilə bağlı bir yarışma oyunu ilə başlayan təlim müzakirələrlə davam edib.

N.Sədiyeva bildirib ki, təlimin keçirilməsində əsas məqsəd uşaqların, xüsusən də 42 aya qədər olan uşaqların əqli inkişafını qiymətləndirməkdir. Belə ki, təlimə qatılan tələbə və rezidentlər, pediatrlar ətraflarında inkişaf çətinlikli uşaqlar aşkar edərlərsə, onların özlərinə, ailələrinə dəstək olmaq üçün beynəlxalq cəmiyyətə yiyələnirlər.

Təlimin gedişində beynəlxalq səviyyədə, o cümlədən Azərbaycanda qəbul olunmuş qanunların uşaq hüquqlarının qorunmasına dair ayrı-ayrı müddəalarından da söhbət açılıb. Ölkəmizdə sağlamlıq imkanları məhdud olan uşaqların dövlət qayğısı ilə əhatə olunması, mövcud problemlərin həlli üçün xüsusi proqramların hazırlanması, bütün hallarda uşaqların sosial müdafiəsinin daim önə çəkilməsinin vacibliyi vurğulanıb. Qeyd edilib ki, uşağın beyni həyatın ilk illərində çox sürətlə inkişaf etdiyindən, onun sağlamlığına və böyüməsinə nəzarətlə yanaşı, inkişafının izlənilməsi də zəruridir. O da diqqətə çatdırılıb ki, inkişaf problemli uşaqların büdcə vəsaiti hesabına müalicə almaq hüquqları var və bu haqda geniş maarifləndirmə işlərinin aparılmasına ciddi ehtiyac duyulur.

Təlim zamanı sağlamlığı məhdud olan uşaqların cəmiyyətə inteqrasiyası üçün təkliflər səsləndirilib və fikir mübadiləsi aparılıb. İnkişaf çətinlikli uşaqlara və onların valideynlərinə müraciət edərkən və klinik protokolların tərtibində etik, terminoloji ifadələrin seçilməsinin üstünlüklərinə toxunulub.

Slaydalar, rəngli şəkillər və sosial videoçarxların nümayişi ilə müşayət olunan təlim iştirakçılar tərəfindən böyük maraqla qarşılanıb.

*İmadəddin Nəsimi-650*

# Nəsimi poeziyasının işığında

❍ **Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin sərəncamı ilə 2019-cu il "Nəsimi ili" elan edilib və bu məqsədlə ölkənin elm, təhsil ocaqlarında yubiley tədbirləri təşkil olunur.**




Azərbaycan dili kafedrasında da yubiley tədbiri keçirilib. Tədbiri açan müalicə-profilktika fakültəsinin tələbəsi Fəridə Şahbazzadə yubiley iştirakçılarını salamladı və dahi Nəsiminin "Səfər eylə" qəzəli ilə sanki hamını XIV əsrə, Nəsimi dünyasına apardı.

Sonra söz tədbirin təşkilatçısı, Azərbaycan dili kafedrasının müdiri, professor Natavan Hacıyevaya verildi. O qeyd etdi ki, ana dilindən başqa ərəb və fars dillərində də yaratmış olduğu əsərlərin şöhrəti şairin təkcə Şərqdə deyil,



vətənindən çox-çox uzaqlarda, Avropada da tanınmasına səbəb olub.

Azərbaycan Yazıçılar Birliyinin üzvü, "Azərbaycan" jurnalının redaktor müavini Əsəd Cahangir isə 650 ildir ki, məsləki uğrunda dara çəkilib dərisi soyulan, son nəfəsində belə öz sözündən dönməyən İ.Nəsiminin bənzərsiz poeziyasından söz açdı. Ana dilində yazmış olduğu mürəbbe, tərcibənd, tuyuq və rubailəri ilə ədəbiyyat xəzinəmizi zənginləşdirən Nəsiminin Azərbaycan ədəbiyyatında fəlsəfi şeirin əsasını qoyduğunu dedi.

AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun elmi işçisi, professor Sevil Mehdiyeva vurğuladı ki, Nəsimi poeziyasının leytmotivi insandır - zəkalı, kamil, gözəl insan. Öz amalından dönməyən, mübariz, haqq, həqiqət yolunda canından keçməyə hazır olan mərd, sadiq, vəfalı insan. Humanist şair insan ləyaqətini alçaldan, onun mənəvi azadlığını buxovlayan feodal dünyasına qarşı alovlu etiraz səsini qaldırmışdı.

Çıxışında cahana sığmayan mütəfəkkir şairin hürufilik ideyalarını yaydığına görə təqiblərə məruz qaldığını söyləyən ATU-nun Azərbaycan dili kafedrasının dosenti Xuraman Məhərrəmova bildirdi ki, vətəndən didərgin düşən, diyarbədiyar, ölkəbəölkə gəzən Nəsimi ömrünün son günlərini doğma vətənində keçirmək qərarına gəlmişdi. Ona görə də Şamaxıya qayıtmışdı. Lakin dindarlar onu "kafir" adlandırır, ata evinə od vurub yandırırlar. Nəsimi baş götürüb Hələb şəhərinə gedir və burada da edam olunur.

Tədbirdə Müalicə-profilaktika fakültəsinin tələbələri Aytən Quliyeva "Ayrılır", Səmra Bayraqdarova "Hardasan", Zeynab Zeynal "Ağrımaz", İctimai səhiyyə fakültəsinin tələbəsi Günəş Əliyeva "Canımın cananəsi" qəzəlini, hazırlıq bölməsinin dinləyicisi Sina Padidari isə Nəsiminin fars dilində qəzəlini məharətlə söylədilər.

Müalicə-profilaktika fakültəsinin tələbəsi Hikmət Abbasov, Stomatologiya fakültəsinin tələbəsi Vüsal Həsənlinin tarda müşayiəti ilə "Məndə sığar iki cahan" qəzəlini və "Kor ərəbin mahnısı" ədəbi-bədii kompozisiyasını səsləndirdi. Bu səs hamını heyrətə gətirdi.

Gələcək həkimlərin Nəsiminin qəzəllərini yüksək səviyyədə, obrazlı şəkildə ifa etmələri günlərlə keçilən məşqlərin, şəxsən kafedra müdiri, professor Natavan Hacıyevanın gərgin əməyinin nəticəsi idi.

**Arzu MİRZƏYEVA,**
*Azərbaycan dili kafedrasının müəllimi*

# Tədris Terapevtik Klinikasında vərəm xəstəliyi ilə bağlı konfrans olub

◆ ATU-nun Tədris Terapevtik Klinikasında "Vərəm xəstəliklərinin diaqnozu və müalicəsindəki yeniliklər" mövzusunda konfrans keçirilib.



Konfransda çıxış edən Türkiyənin Acıbadem Universitetinin professoru, doktor Tanıl Kocagöz dünya əhalisinin 1/3-nin vərəm daşıyıcısı olduğunu, yəni vərəmin dünyadakı insanların 2 milyarddan çoxunu əhatə etdiyini deyib. Onun sözlərinə görə, hər gün 3 milyondan artıq insan vərəmə yoluxur ki, bunlardan da gündə 8 mini dünyasını dəyişir. Vərəmin ilkin əlamətləri və yaranması yollarından bəhs edən doktor T. Kocagöz bildirib ki, ən çox hava yolu ilə insandan-insana keçən bu xəstəlik nə qədər tez aşkarlanarsa, o qədər də asan müalicə oluna bilər. O, deyib ki, halsızlıq, yorğunluq, uzun sürən atəş və öskürək, gecə tərləməsi, iki həftəlik bəlğəmin gəlməsi və qana çevrilməsi kimi əlamətləri özündə əks etdirən bu xəstəliyin müalicəsi 4 aydan 6 aya qədər davam etdirilir.

T.Kocagöz çıxışında əsasən son metodlara istinad edərək xəstəliyin diaqnostikası və müalicəsinin daha səmərəli aparılması yollarından danışıb. Məruzəçi bu sahə üzrə Türkiyədə və dünyanın inkişaf edən ölkələrində tətbiq olunan ən yeni dərman vasitələrinin təsiri və eləcə də bu preparatların istifadə qaydaları barədə ətraflı məlumat verib.

Elmi Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutunun laborator bölmə üzrə elmi rəhbəri, doktor Rafiq Abuzərov "Azərbaycan Vərəm Laboratoriyasının quruluşu və gördüyü işlər" barədə geniş məruzə ilə çıxış edib. Respublikamızda bu sahə üzrə fəaliyyət göstərən laborator şəbəkə haqqında tədbir iştirakçılarını məlumatlandıran R. Abuzərov milli istinad, regional və mikroskopiya laboratoriyalarının iş prinsipləri və onlarda aparılan elmi-tədqiqat işlərinin nəticələrindən söhbət açıb. O, bildirib ki, vərəmə xas əlamətləri olan xəstələrin diaqnostikası və monitorinqinin aparılması, bəlğəm nümunələrinin saxlanma temperaturu və müddəti, həmçinin daşınma metodunun düzgün qrafik üzrə təyin olunması bu laboratoriyanın əsas işidir. .

Bundan başqa Türkiyəli mütəxəssis İskender Karaltının "Türkiyə və dünya vərəm ilə xəstələnmə tezliyi" adlı məruzəsi iştirakçılar tərəfindən maraqla qarşılanıb.

Diskussiya şəklində başa çatan konfransda mütəxəssisləri düşündürən suallar da məruzəçilər tərəfindən cavablandırılıb.

**ATU-nun mətbuat xidməti**

## «EKQ göstəriciləri: norma və patologiya» mövzusunda seminar

**ATU-nun Tələbə Gənclər Təşkilatının (TGT) təşəbbüsü ilə Ümumdünya Hipertoniya ilə Mübarizə Gününə həsr olunmuş seminar keçirilib.**



Seminar II daxili xəstəliklər kafedrasının dosenti Könül Məmmədyarovanın təqdimatında "EKQ göstəriciləri: norma və patologiya" mövzusunda olub.

Seminarda iştirakçılara ürək hüceyrələri (kardiomiositlər), onların oxşar və fərqli cəhətləri, funksiyaları, kardiomiositlər membranındakı kanalları, EKQ-də olan dişciklər, ürək vurğularının təyin edilməsi üsulları, ürəkdə avtomatizm mərkəzləri və onların funksiyaları və s. mövzular haqqında geniş məlumat verilib.

Seminar zamanı baş tutan interaktiv sual-cavab mərhələsində aktiv iştirak edən 20 tələbə sertifikatla təltif olunub.

## Yeni-yeni qələbələr arzulayırıq!

**Respublika "Gənclik" Tələbə İdman Cəmiyyətinin təqvim planına əsasən, aprel-may aylarında ali təhsil müəssisələri arasında XIV Respublika Universiadasına daxil olan müxtəlif idman növləri üzrə yarışlarda ATU-nun yığma komandaları da uğurla iştirak ediblər.**




Belə ki, aprelin 15-dən 24-dək ATU-nun idman kompleksində kişilər arasında basketbol (məşqçi-müəllim Sevinc İsayeva) və mayın 7-8-də Aviasiya Akademiyasının idman zalında Yunan-Roma və Sərbəst güləş üzrə (məşqçi-müəllim, professor Zakir Məmmədov) keçirilən yarışlarda komandalarımız ümumi hesabla III yerə çıxıb.

Mayın 11 və 12-də Gəncə şəhərində stolüstü tennis üzrə yarışlar keçirilib. Məşqçi-müəllim Yaroslava Ağamalıyevanın komandanlığı ilə tələbələrimiz kişilər arasında I yeri, qadınlar arasında isə III yeri tutublar.

Mayın 19-da isə İdman Akademiyasının stadionunda atletika üzrə (məşqçi-müəllim Şükür Bayramov) yarışlara start verilib. Universitetimizin komandası ümumi hesabda III yeri qazanıb.

Keçirilən yarışlarda iştirak edən ATU-nun bütün idmançı tələbələrini və onların məşqçi-müəllimlərini bu uğurlu nailiyyətlərin əldə olunması münasibətilə təbrik edir və yeni-yeni qələbələr arzulayırıq!

**K.KƏBİRLİNSKİ,**
*"Təbib" idman klubunu sədri, professor*

## "ATU alovları" komandası Stavropoldakı yarışda yüksək nəticə göstərib

**Mayın 17-18-də Rusiyada Stavropol Dövlət Tibb Universitetinin təşkilatçılığı ilə tibb tələbələrinin VI Beynəlxalq "Asklepiy 2019" olimpiadası keçirilib. Olimpiadada Rusiyanın müxtəlif şəhərlərinin və Çin Xalq Respublikasının Harbin və Haynan tibb universitetlərinin 17 komandası ilə yanaşı, Universitetimizin "AMU fires" ("ATU alovları") adlı komandası da iştirak edib.**




Tədbirin ilk günü nümayəndə heyətimizi Stavropol Dövlət Tibb Universitetinin rektoru, professor V.Koşel qəbul edib. Universitetlər arasındakı ikitərəfli əməkdaşlığı yüksək qiymətləndirən rektor V.Koşel bu yaxınlarda Stavropolda keçiriləcək "Tələbə baharı" festivalı haqqında da geniş məlumat verib. O, ATU-nun komanda üzvlərinin tibb karyerası ilə bağlı planları ilə də maraqlanaraq tələbələrimizə yarışda uğurlar arzulayıb.

Olimpiadanın əsas mövzusu müxtəlif bədbəxt hadisələr və qəzalar zamanı həkiməqədər ilkin tibbi və təxirəsalınmaz yardımın göstərilməsi idi. Olimpiadanın birinci günü iştirakçılar "Tibbi biatlon", "Təcili yardım otağı", "Kapitanların müsabiqəsi", "Musiqili müsabiqə", ikinci gün isə "Fövqəladə vəziyyətdə və bədbəxt hadisə zamanı təxirəsalınmaz yardımın göstərilməsi" kimi tapşırıqları icra ediblər.

Meşədə yerləşən "Lesnaya polyana" adlı düşərgədə keçirilən olimpiadada universitetimizin komandası yaxşı nəticə göstərərək "Ən yaxşı psixoloji yardımın göstərilməsi" nominasiyasında "Fəxri Fərman"a layiq görülüb.

Tədbirin bağlanış mərasimində Stavropol Dövlət Tibb Universitetinin rektoru, professor V.Koşel ATU-nun rektoru, professor G.Gəraybəyliyə komandamızın bu tədbirdə iştirakını təmin etdiyi və universitetlərimiz arasında əməkdaşlığı münasibətlərini dəstəklədiyi üçün təşəkkür edərək rəsmi minnətdarlıq məktubunu təqdim edib.

ATU-nun komandasına Beynəlxaq əlaqələr şöbəsinin Mübadilə proqramları üzrə koordinatoru Müşfiq Orucov rəhbərlik edib. Komandanın tərkibi II MPF, VI kurs tələbələri Mirzeynal Hüseynov (kapitan), Mirməhəmməd Ağa, Emin Eyvazov, Məhərrəm Alimli və I MPF VI kurs tələbəsi İsmayıl Əliyev, IV kurs tələbəsi Şamil Rəşidovdan ibarət olub.

**ATU-nun mətbuat xidməti**

## Tələbələr "Mahmud və Məryəm" tamaşasını təqdim ediblər

Mayın 21-də ATU-nun Tələbə Həmkarlar İttifaqı Komitəsinin (THİK) nəzdində yaradılan teatr dərnəyinin təşkilatçılığı ilə xalq yazıçısı Elçin Əfəndiyevin eyniadlı pyesi əsasında hazırlanmış "Mahmud və Məryəm" tamaşası nümayiş etdirilib.



Nümayişdən öncə çıxış edən THİK-nin sədri Elvin Kərimli tələbələrin asudə vaxtının düzgün təşkil olunması üçün komitə tərəfindən mütəmadi olaraq belə tədbirlərin reallaşdırıldığını bildirib. Onun sözlərinə görə, təkcə son 2 ayda "Tibbdə Jest dili" təlimi, tanınmış yazıçı-psixoloq Rövşən Abdullaoğlu ilə görüş, şahmat və dama yarışları, tibb tələbələri üçün intellektual yarışlar və s. təşkil olunub.

E.Kərimli tamaşanın hazırlanmasında zəhməti keçən hər kəsə, xüsusilə də Cavid Mustafazadə və Nihad Novruzova təşəkkkür edib.

Tamaşaya quruluş verən BDU Tələbə Həmkarlar İttifaqı Komitəsinin nümayəndəsi Nurel Kərim bu layihədə ATU-nun THİK ilə əməkdaşlıq etməyin xoş olduğunu deyib. O, tələbələrimizin dərs qrafiklərinin ağır olmasına baxmayaraq, incəsənətə vaxt ayırıb belə bir tamaşa ərsəyə gətirdiklərindən məmnun olduğunu bildirib.

Sonra səhnə tələbələrə verilib. "Mahmud və Məryəm" böyük maraqla izlənilib. Tamaşada dramatik səhnələr tələbələr tərəfindən məharətlə canlandırılıb. Tədbirdə iştirak edən tələbə və müəllimlər nümayişdən razı qaldıqlarını bildiriblər.

Teatr dərnəyinin sədri Nihad Novruzov ilk tədbirin təşkil olunmasında dəstəyinə görə universitet rəhbərliyinə təşəkkürünü bildirib və gələcəkdə daha maraqlı tamaşalar hazırlayacaqlarını vəd edib.

Qeyd edək ki, "Mahmud və Məryəm"də rolları tələbələrimizdən Aygün Abbasova, Nizami Hüseynov, Yunis Məmmədli, Nihad Novruzov, Şövkət Qasımova, Dilbər Əliyeva, Eyyub Mirzəyev, Kərim Nurel, Çingiz Hacıyev, Nigar Allahverdiyeva və Elbəy Cabbarlı ifa ediblər.

### Etibarsız sayılır

II müalicə-profilaktika fakültəsinin III kurs, $362^{a}$ qrup tələbəsi Səmədov Mətin Arif oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Stomatologiya fakültəsinin V kurs, $722^{a}$ qrup tələbəsi Karaçöl Filiz Ahmet qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin II kurs, $117^{i-4}$ qrup tələbəsi Hussein Abbas Fadihil Abbasın adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

II müalicə-profilaktika fakültəsinin V kurs, $237^{a}$ qrup tələbəsi Hüseynov Müşfiq Telman oğlunun adına verilmiş müvəffəqiyyət kitabçası itdiyi üçün etibarsız sayılır.

II müalicə-profilaktika fakültəsinin I kurs, $218^{r-1-a}$ qrup tələbəsi Abduragimov Kamilin adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Stomatologiya fakültəsinin III kurs, $780^{a}$ qrup tələbəsi Alper Gök Nail oğlunun adına verilmiş müvəffəqiyyət kitabçası itdiyi üçün etibarsız sayılır.

Əczaçılıq fakültəsinin II kurs, $817^{i-2}$ qrup tələbəsi Ahmed Bilal Taal oğlunun adına verilmiş müvəffəqiyyət kitabçası itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin II kurs, $117^{a-16}$ qrup tələbəsi Qurbanlı Vəli Malik oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Əczaçılıq fakültəsinin tələbə məzunu Kərimli İsmayıl İlqar oğlunun adına verilmiş tələbə bileti və müvəffəqiyyət kitabçası itdiyi üçün etibarsız sayılır.

II müalicə-profilaktika fakültəsinin V kurs, 260-cı qrup tələbəsi Hüseynov Oqtay İlham oğlunun adına verilmiş müvəffəqiyyət kitabçası itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin I kurs, $118^{a-2b}$ qrup tələbəsi Hacıyev Millət Xaliq oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

II müalicə-profilaktika fakültəsinin III kurs, $364^{a}$ qrup tələbəsi Qurbanova Lamiyə Məhərrəm qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin V kurs, $36^{b}$ qrup tələbəsi Altundağ Mehmet Asımın adına verilmiş müvəffəqiyyət kitabçası itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin V kurs, $41^{a}$ qrup tələbəsi Altundağ Muhammed Salıhin adına verilmiş müvəffəqiyyət kitabçası itdiyi üçün etibarsız sayılır.

Stomatologiya fakültəsinin V kurs, $722^{a}$ qrup tələbəsi Talıbov Kənan Vidadi oğlunun adına verilmiş müvəffəqiyyət kitabçası itdiyi üçün etibarsız sayılır.

Əczaçılıq fakültəsinin I kurs, $518^{A-2a}$ qrup tələbəsi Yəhyayeva Asudə Teymur qızının adına verilmiş müvəffəqiyyət kitabçası itdiyi üçün etibarsız sayılır.

### Allah rəhmət eləsin!

"Təbib" qəzetinin kollektivi iş yoldaşları Mənsur Ələkbərliyə bacısı

**Dilarə Səfərovanın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Farmakologiya kafedrasının əməkdaşları kafedranın professoru Zəkiyyə İsmayılovaya qardaşı

**Arif Tağıyevin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

II mamalıq-ginekologiya kafedrasının əməkdaşları kafedranın həkim mama-ginekoloqu Nərgiz Əmiraslanovaya babası

**Yusif Mirzəyevin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Bioloji kimya kafedrasının kollektivi kafedranın professoru Tahirə xanım Əsgərovaya əzizi

**Gülşən xanım Tofiq qızının**

vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

II uşaq xəstəlikləri kafedrasının əməkdaşları kafedranın dosenti Sabir Əmirəliyevə və Ə.Qarayev adına Uşaq Xəstəxanasının həkimi Mailə xanıma əzizləri

**Afat Məmmədovun**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Baş redaktor
**ELDAR İSMAYIL**

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
*Əlyazmalar geri qaytarılmır.*

Qəzet "Təbib" qəzetinin kompyuter mərkəzində yığılır, səhifələnir, "Bəxtiyar-4" İKŞ-də çap olunur.

**ÜNVANIMIZ:**
**Mərdanov qardaşları - 98c**
**2-ci mərtəbə,**
**Tel.: 595-24-97**
**tabibqazeti@gmail.com**

Lisenziya H - 022633
İndeks -0269
Sayı 2200